# Allahin sevimli bəndəsi

**Onu başqalarından fərqləndirən əsas çəhətlər gələcəyi müəyyən qədər qabaqcadan görə bilmək qabiliyyəti, zamanın "nəbzini tutmaq" bacarığıdır. O, çoxlarının "böyük, qüdrətli rus dili"nə sitayiş etdiyi dövrlərdə ingilis danışıq dili ilə yanaşı ingilis elmi dilini də öyrənirdi.**

**Sovet təhsil sisteminin dünyada ən mütərəqqi bir sistem, sovet elminin ən qabaqcıl elm kimi qəbul edildiyi zamanlar o, üzünü artıq Amerika Birləşmiş Ştatlarına, Kanadaya, Avropaya tutmuşdu, təhsil sistemində köklü dəyişikliklər, islahatlar haqqında düşünürdü.**

**O, respublikamızda dövlət tədris müəssisələri ilə rəqabət apara bilən, sorağı çox-çox uzaqlardan gələn yeni tipli, özəl universitet yaratdı, onun uğurlu fəaliyyətini təşkil edə bildi. O, qeyri-ordinar ideyaları, təklifləri, hərəkətləri ilə bəzən düzgün başa düşülməyən, bəzən özünə qarşı həsəd yaradan, tükənməz enerjiyə malik, həyatda fəal vətəndaşlıq mövqeyi ilə seçilən yaradıcı bir insandır.**

**Söhbət Xəzər Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlıdan gedir.**

**O, görkəmli riyaziyyatçı, tanınmış şair, publisist, humanitar və sosial elmlər üzrə tədqiqatçı, tərcüməçi, istedadlı elm və təhsil quruçusu, yüksək intellekt sahibidir.**

Hamlet İsaxanlının elmi rütbələrinin, titullarının, yaradıclıq nailiyyətlərinin, aldığı mükafatlarının, təltiflərinin adi siyahısı qəzet yazısı üçün çox yer aparardı. Odur ki, bu fövqəladə şəxsiyyət, onun qazandığı parlaq nailiyyətlər, gördüyü böyük işlər haqqında dünya şöhrətli alimlərin, tanınmış simaların dediklərindən yalnız üç nümunə ilə kifayətlənəcəm.

***A.Sadovniçıy, M.B.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik:***

"Çoxparametrli spektral nəzəriyyə funksional analizin maraqlı və çətin sahələrindən biridir. Mən bu sahəyə aid çox işlərə rəy yazmışam və qeyd etmək istəyirəm ki, H.A.İsayevin bir çox elmi nəticələri xarici alimlər tərəfindən aparılmış tədqiqatları çox-çox arxada qoymuşdur".

***Raymond Маĸ Qi (Kaliforniya Universiteti, Los-Anceles, ABŞ):***

"Hamlet müəllim bənzərsiz alim-rektordur. O, bir dəyərli alim kimi riyaziyyat elminə əvəzsiz tövhələr vermişdir. Dağılmış Sovet İttifaqından sonrakı keçid dövründə o, orijinal bir universitet yaratmışdır. Xəzər Universitetini yaratmaqla bu regionda Hamlet müəllim yeni dəyişikliklər, yeni fikirlər dövrünün pioneri oldu.

Hamlet müəllimin rəhbərlik etdiyi Xəzər Universitetində yaratdığı ab-hava onu ali təhsil ocaqları içərisində ən yüksək pilləyə qaldırmışdır. Burada işləmək və oxumaq böyük xoşbəxtlikdir".

***Nəriman Həsənzadə, xalq şairi:***

"Bizim Hamlet müəllimin Şekspirin Hamletindən daha qabiliyyətli, yaradıcı və qurucu ol duğu fikri dolaşdı başımda və onun şəninə bir şeir yarandı:

***Şekspir dahidir şəksiz-şübhəsiz,***
***"Hamlet'i Hamletə bənzər yaratdı.***
***Lakin ləngimədi Borçalı prins,***
***Xəzər sahilində "Xəzər "yaratdı***

Hamlet müəllimin "Susma, damş, ay ana" şeiri anaya həsr edilmiş ən səmimi əsərlərdən biridir".

***Xəzər Universitetində gözüm bir yazıya sataşdı:***

**"Təhsili bilən adam kimi tam qətiyyətlə, səmimiyyətlə deyirəm: əgər mən bu gün Azərbaycanda təhsil almaq istəsəm, yalnız "Xəzər"də oxuyardım". Bu sözləri yalnız Hamlet İsaxanlı deyə bilər və belə deməyə də haqqı var. Bu sözlər Xəzər Universiteti üçün ən güclü reklamdır. Bu, ayaqqabı fabriki sahibinin yalnız öz istehsalları olan ayaqqabıları geyməsi reklamından da güclüdür.**

## Professor Hamlet İsaxanlı ilə müsahibə

- ***Özünüz haqqında məlumat verməyinizi xahiş edirəm.***

- Orta məktəbi qızıl medalla, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişəm. Təhsilimi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspi-ranturasında davam etdirmiş, əvvəlcə fizika-riyaziyyat elmləri namizədi, sonra isə SSRİ EA V.A.Steklov adına Riyaziyyat İnstitutunda fizika-riyaziyyat elmləri doktoru elmi dərəcələrini almışam, Beynəlxalq Elmlər Akademiyasının, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki seçilmişəm.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetində, Kalqari (Kanada) Universitetində, Marmara (Istanbul) Universitetində işləmişəm.

40-dan çox ölkədə beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış etmişəm.

Yusif Məmmədəliyev mükafatı, Beynəlxalq "Qlobal Keyfiyyət Menecmenti" (London), "Qızıl qələm", "Səməd Vurğun" mükafatları laureatıyam.
200-dən artıq elmi məqalənin, riyaziyyat, təhsil, dilşünaslıq üzrə monoqrafiya və dərsliklərin, müxtəlif dillərdə nəşr olunmuş şeir kitablarının müəllifiyəm.

**Məşhur alman riyaziyyatçısı Karl Veyerştrassın "əsl riyaziyyatçı bir az da şair olmalıdır" kəlamına münasibətiniz.**

- Əsl riyaziyyatçı öz elmi kəşflərini intuisiyanın (sezginin) açdığı, göstərdiyi yolla və məntiqin gücü ilə meydana çıxarır. Bu yol asan açılmır, riyaziyyatçının ən böyük çətinliyi məhz kəşfə gedən yolun müəyyən edilməsidir. Şüurlu fəaliyyət, zəka, ağıl gücü çox zaman birbaşa nəticə vermir. Riyaziyyatçı problemin mənşəyi, xarakteri barədə daima düşünür, lakin məsələ həll olunmur. Üzdə aşılmaz səddə dayanan iş bilinc altma keçirilir, sanki riyaziyyatçının bütün bilik, təcrübə və ehtirası öz-özünə, şüursuz surətdə, səs salmadan axtarışla məşğul olur. Riyaziyyatçı sanki məsələdən yorulmuş və onu unutmuş kimidir.

Və bir gün, bir an içində bu gizli iş öz bəhrəsini verir, sanki bir parıltı, bir qığılcım doğur və qaranlığı dağıdır, həll olunmayan problemin həlli yolu elan edilir, beləliklə, kəşfə gedən yolu birbaşa məntiqi fəaliyyət deyil, bilincaltı fəaliyyət elan edir. Bu, əslində, beyinə beyin tərəfindən verilmiş bir əmrin icrasıdır, sanki gizli bir qüvvə bu əmri yerinə yetirməklə məşğul olub həlli tapan kimi xəbər verir. Bu xəbərin gözlənilməzliyi, gözləmədiyimiz anda uzun axtarışdan sonra üzə çıxması, parlaması sanki bir məntiqi çalışmanın nəticəsi deyil, təsadüfün, ilham pərisinin gözə görünməsi nəticəsidir.

Bu prosesdə riyaziyyatçının fantaziya gücü, intuisiyası, təxəyyülü həlledici rol oynayır. Artıq məlum olan yolla doğru-düzgün getməyə isə məntiq kömək edir. Yolda rast gələ bilən kəskin eniş-yoxuşlar, böyük döngələr də yenidən intuisiyanın, fantaziyanın və bilincaltı işin köməyi ilə idarə olunur. Beləliklə, intuitiv və məntiqi fəaliyyət bir-birini əvəz edir, bir-birinə kömək edir və yol sona qədər qət edilir..

Poeziya bir şah misranın davamı, bir paradoksal gözəlliyin təsviri olduğu kimi, riyaziyyat da paradoksal görünən bir fikrin, bir gözəl ideyanın məhsuludur. Şairin məntiqi formanı və fikri bir-birinə qovuşduran alətdir, texnikadır, müxtəlif şairlər bunu fərqli ustalıqla həyata keçirmək qabiliyyətinə sahib olurlar (burada şəxsiyyət, dünyagörüşü və məsuliyyət də rol oynayır).

Riyaziyyatda da eyni cürdür, lakin zənnimcə, riyazi nəzəriyyənin yaranması zamanı məntiqin üzərinə poeziyadakına nisbətən daha ağır yük düşür. Üstəlik riyaziyyatçının həvəslə ehtirası, fərdi xüsusiyyətləri problemin həllinə yanaşmada mühüm rol oynayır. Məhz bu səbəbdən eyni bu problemə müxtəlif riyaziyyatçıların yanaşması bir-birindən fərqlənir, məntiqə hərə öz qəlbindən qopan işıqla yol göstərir.

Əsl riyaziyyatçı güclü intuisiyaya, fantaziyaya, bilincaltı axtarış istedadına, qığılcım doğura bilən qəlbə malik olmalı, bu qığılcımı, bu ani parıltını kəşfə çevirməyi bacarmalıdır. Bu cəhətlərdən kasıb olan riyaziyyatçı əsl riyaziyyatçı deyil, o, qafıyələri yan-yana düzüb söz oyunu ilə məşğul olan zəif şairlərə bənzəyir. Əslində riyaziyyat özü bir poeziyadır, içi fikir dolu, möcüzələr dolu bir poeziya!

Estetik dəyər həm şeirdə, həm riyaziyyatda mühüm əhəmiyyət kəsb edir. Riyaziyyat da, poeziya da gözəlliyin, harmoniyanın vəsfi və sirləri ilə məşğuldur. Puankare riyaziyyatçının bilincaltı fəaliyyət mexanizminin gözəllik və ahəng (harmoniya) axtarışı olduğunu irəli sürürdü.

**- Bəzi özəl universitetlərin rektorları özlərini universitetin sahibi kimi aparırlar və bu məntiqlə də hərəkət edirlər. Siz necə, Xəzər Universitetinin daha çox sahibisiniz, yoxsa rektoru?**

- Mən Xəzər Universitetinin təsisçisi və rektoruyam, bu şübhəsiz ki, adi rektorluqdan çox fərqlidir. Burada qurucu rektor sözü daha yerinə düşür. Dövlət universitetinin rektoru bu vəzifəyə təyin olunub, onu bir qədər sonra kimsə əvəz edəcək. Özəl universitetin sonrakı rektorları da bənzər şəkildə seçiləcək və ya təyin olunacaq (təsisçi və ya himayəçilər heyəti tərəfindən). Beləliklə, özəl universitetin ilk rektoru qurucu rektordur (o, təsisçidirsə). O, universiteti "heç nədan", sıfırdan qurur (işə cəlb etdiyi komanda ilə birlikdə). Burada sahiblik hissi deyil, yaradıcı məsuliyyət birinci yerə çıxır. Valideyn öz övladını böyüdür, ona tərbiyə və təhsil verməyə çalışır. Övladın uğurlarında valideynin payı, böyük rolu var. Uşağın uğursuzluğunda da valideyinin günahı var. Valideyn övladının sahibidirmi? Əlbəttə, yox! Valideyn qurucudur,- memardır. Yaratdığı əsər də onun övladıdır. Mən Xəzər Universitetinin qurucusu olaraq onu düzgün inkişaf etdirməyə çalışıram, onu qoruyuram (bəd əməldən, pis niyyətli müdaxilələrdən), onun gələcəyini parlaq görmək istəyirəm və bu yolda bütün qüvvə və bacarığımı işə salıram. Mənimlə bərabər çalışanlar da qurucudurlar. Onların da bu işdə əməyi var.

**- Xasiyyətinizdə ən xoşunuza gələn və xoşunuza gəlməyən cəhətlər.**

- Bu sualın cavabında özünü bəyənmək notları hiss oluna bilər. Hansı cəhətlərim xoşuma gəlir? Mənə elə gəlir ki, səmimiyəm, ədalətliyəm, həqiqətpərəstəm, doğru danışanam, özümdən güclüyə (hakimiyyət baxımından) baş əyməkdən, onun qılığına girmək hissindən çox uzağam. Deyəsən çox oldu... Əslində bunu mənim özümdən deyil, məni tanıyanlardan soruşmaqla daha dəqiq cavab almaq olardı.

Xoşuma gəlməyən cəhətlərimi də saya bilərəm (bu an yadıma düşənləri). Diqqətsiz ola bilərəm, dostlara, tanışlara, ailə üzvlərinə qarşı... Onlardan vaxtı-vaxtında hal-əhval tutmaq, yoxlamağı, ad günü və digər əlamətdar hadisələr münasibətilə onları təbrik etməyi, onlara hədiyyə almağı unuda bilərəm.

Ciddi bir işin arxasınca düşəndə bəzi maneələri aşmağa həvəsim olmaya bilər. Məsələn, xüsusi adamlarla xüsusi danışığa getmək, məsələnin həlli üçün bütün vasitələrdən istifadə etmək kimi.

Evdə sadə bir işdən yüngülcə də olsa inciyə bilərəm, hərçənd bu inciklik çox tez keçir.

Bir sıra hallarda böyük, sanballı adam kimi deyil, uşaq kimi hərəkət edə bilərəm. Nədənsə tələbələrə münasibətdə, məsələn, dərs deyəndə, söhbət edəndə özümdən qəti surətdə asılı olmadan, özümü onların yoldaşı, tay-tuşu kimi aparıram, əslində isə mən yaşa dolmuş müəllliməm, rektoram, onların müəllimi kimiyəm. Bir şeirdə bu məsələyə toxumuşam, içimdə həm uşaqlıq, həm gənclik, hərdən bir yaşa dolmuşluq hissinin yaşadığını ifadə etmişəm. Onun kiçik bir parçası:

***Birbaxın: canımda neçə can varmış,***
***Qəlbimi neçə qat duyğular sarmış,***
***Qanım uşaqlıqdan axan qan imiş,***
***Gənclik atəşi də qəlbi yaxarmış.***
***Mənə "sanballı ol"söyləyən dostlar,***
***Başqadır gərdiş –***

***Deməyə nə var?!***
***O qədər də sadə deyilmiş bu iş...***

Fəaliyyətimdə yəqin ki, qismən də xasiyyətimdən irəli gələn bir genişlik və dəyişkənlik var. Çox müxtəlif işlərlə məşğul oluram, çox zaman da eyni vaxtda. Bu, bir işi götürüb asta-asta sonuna qədər çatdırmağıma mane olur; bu həm praktik, həm də yaradıcı fəaliyyətimə xasdır.

**- Qibtə etdiyiniz insanlar varmı?**
- Qəti surətdə yox! Sevdiyim insanlar var, qibtə etdiyim yox.

***Binadan nə Tolstoyçu, nə Marksist,***
***Nə sosialist, nə başqa "ist",***
***Nə Mustafa Kemalistəm.***
***Zaman-zaman onlara mehman olsam da***
***Təklikdən də zövq almışam,***
***Söhbət edib dərs alsam da***
***Mən öz havamı çalmışam.***
***Məni xorda oxutsalar***
***Səsim, sözüm, öz nəğməm var—***
***Dadı-duzu olsa da kəm,***
***Yenə nə qəm?!***
***Mən solistəm ki, solistəm!***

Mən həm riyaziyyat kimi çətin bir elmdə, həm humanitar və sosial elmlərdə, eləcə də bədii yaradıcılıq sahələrində kifayət qədər fəallıq göstərə bilmişəm və bu gün də tələbəlik vaxtımda olduğum qədər, hətta bəzən daha çox çalışa bilirəm. Məndən asılı olan işləri tam və keyfiyyətli görməyə çalışıram. Bu halda niyə kiməsə qibtə etməliyəm? Özümə xüsusi hakimiyyət axtarmamışam, hakimiyyətə can atmıram. Bu yəqin ki, təbiətimdən, yaradıcı işi həyatın mənası və məqsədi olan xoşbəxtliyin əsası hesab etdiyimdən irəli gəlir. Bu səbəbdən hakimiyyətdə olanlara da qibtə etməmişəm. Amma sevdiyim, onlardan öyrəndiyim çox insanlar var, tarixə keçənlər və ya yaşayanlar arasında.

**-Riyaziyyatçı-şairdən şeirsiz ayrılmaq günah olardı.**
- Başa düşürəm. Əziz oxucular üçün riyaziyyata aid bir teorem və nəzəriyyə barədə danışmağımı istəməyəcəkdiniz ki...

Poeziyada nisbətən az rast gəlinən doqquz hecalı kiçik bir şeir:

***Ömür var, mənası —ye, iç yat,***
***Nə dərin həyəcan, nə fəryad.***
***Sevdasız bir həyat-nə həyat?!***

***Sizə birsöz deyim, nəhayət:***
***Tutuşaq, a dostlar, əl-ələ,***
***Keçməsək arzudan əmələ***
***Böyük bir təhlükə, qorxu var-***
***Məhv olar, puç olar arzular,***

*Könüllər coşub nəğmə deməz,*
*Dünya biz deyənə bənzəməz.*

**Hamlet İsaxanlı çöx böyük işlər görüb. Lakin şeirlərinin birində özünə xas olan təvazökarlıqla yazır:**

***B u dünyaya nə gətirdim?***
***B u dünyada nə qoymuşam ?***
***Nə bir işi tam bitirdim,***
***Nə həyatdan tam doymuşam.***

**Bəlkə də bu görüləcək daha böyük işlərə bir işarədir.**

**Hamlet İsaxanlı haqqmda məlumatlandıqca, onun həyatını, yaradıcılığını, qazandığı nailiyyətləri, gördüyü işləri dərk etdikcə, o, insanın gözündə daha da böyüyür, yüksəlir, əlçatmaz olur, hətta bir anlığa "İsaxanlı xofu" yaranır. Lakin onu yaxından tanıdıqca, söhbətləşdikcə, onun sadəliyi, üzərə olmayan təvazökarlığı, səmimiyyəti bu "xofu" əridir. O, "özümüzünküləşir", doğmalaşır, Oğul, Qardaş, Ata səviyyəsinə yüksəlir, ona "sən" deyə müraciət etmək istəyirsən.**

**Hamlet İsaxanlı fitri istedada malikdir. Fitri istedad isə Allah vergisidir. Allah vergini yalnız sevimli bəndələrinə verir.**

**Allah öz sevgisini sənin üstündən əskik eləməsin, əziz Hamlet müəllim!**

***Xəlil Məcidoğlu***
.